**Nərmin Sərvər q. FƏRƏCULLAYEVA**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı, Qərbi Kaspi Universitetinin müəllimi
Email: info@nerminkamal.com

# ŞÜUR PROBLEMİNİN PANPSİXİZM MÜSTƏVİSİNDƏ HƏLLİ MƏSƏLƏLƏRİ

**Xülasə**

Məqalə şüur fəlsəfəsinin iki fundamental probleminin - zehin-bədən dualizmi və subyektiv şüurun mənşəyi haqda sualın panpsixizm mövqelərindən necə həll olunması haqdadır. Məqalədə müasir panpsixizm həm kartezian dualizmini, həm teologiyanı, həm də fizikalizmi inkar edən, elmi metoda uyğun diqqətəlayiq naturalist yanaşma kimi təyin olunur. Müəllif əvvəlcə sözügedən şüur problemləri haqda məlumat verir, ardınca panpsixizm ideyasının tarixi inkişafını izləyir, günümüzdə analitik fəlsəfə ənənəsiylə şüur tədqiqatlarıyla məşğul olan bir neçə filosofun panpsixizmi müdafiə edən arqumentləriylə onların opponentlərinin arqumentlərini nəzərdən keçirir və nəhayət, panpsixizmin imkan və məhdudiyyətlərini göstərir.

**Açar sözlər:** Şüur fəlsəfəsi, şüur-bədən problemi, zehin-bədən problemi, ruh və bədən, subyektiv təcrübə, panpsixizm, analitik fəlsəfə, fəlsəfə tarixi.

**UOT:** 159
**DOI:** 10.54414/LRZM4785

## Giriş

Panpsixizm cansız maddi aləmdə də hər şeyin şüura, şüura bənzər keyfiyyətə və ya subyektiv təcrübəyə malik olduğuna inanan fəlsəfi baxışdır. İbtidai şəkildə animizm, hilozoizm kimi qədim mifoloji inanclarda müşahidə olunan, ilk baxışdan nağıla bənzəyən bu ideya Qərb fəlsəfəsi tarixi boyu müxtəlif kontekstlərdə səyahət edərək, mifik dünyagörüşdən tutmuş bizim dövrümüzdə analitik fəlsəfə ənənəsinin bir sıra nümayəndələrinin şüur problemlərinin həlli kimi irəli sürdükləri yanaşma olmağa qədər, uzun inkişaf yolu keçib.

Bu məqalədə fəlsəfənin ən müəmmalı problemlərindən olan şüur problemlərinin həllində panpsixizmin imkan və məhdudiyyətlərini naturalizm mövqeyindən nəzərdən keçirəcəyik. Konseptual analiz və izah metodlarından istifadə etməklə yanaşı, panpsixizmi rəqib ideyalar olan fizikalizm, funksionalizm, emergentizm kimi yanaşmalarla müqayisəli təhlil edəcək və panpsixizmə müqavimətin bir çox hallarda onun düzgün anlaşılmaması ucbatından olduğunu görəcəyik.

## Əsas hissə

**Şüur müəmması.** Gündəlik həyatda şüur deyərkən insanların düşünmək qabiliyyəti başa düşülür. Fəlsəfədə isə şüur deyərkən hiss üzvlərinin verdiyi məlumatları, duyğuları, qavrayışları, düşüncələri insanın özündən asılı olmadan ani əlaqələndirən və fərdin subyektiv təcrübəsini əmələ gətirən fenomen nəzərdə tutulur. Şüura belə bir tərif də versək, onu təhrif etmiş olmarıq: şüur – insanın gerçəklik haqda subyektiv təcrübəsidir. Şüurun təbiətinə dair biri digərini doğuran, bir-biriylə əlaqəli bir neçə problem var ki, onlardan ikisi xüsusilə mürəkkəb hesab olunur.

Ruh-bədən, şüur-bədən, zehin-bədən problemi kimi adlarla (i) tanınan **birinci problemdə** şüur və bədənin bir-biriylə qarşılıqlı əlaqəsinin necə baş tutması haqda sual qoyulur. Bu suala şüurun paradiqma sualı da deyirlər. Maddi beyin və qeyri-maddi düşüncə bir-birinə necə olur ki, qarşılıqlı təsir göstərir? Bir tərəfdən, şüur maddi şəkildə - beyindaxili proseslər zəminində fəaliyyət göstərir, beyin öləndə hiss və düşüncə prosesi də dayanır, o biri tərəfdən hiss və düşüncələr maddi baxımdan qeydə alına bilmir ki, bu da şüurun qeyri-maddi ruha aid edilməsinə zəmin yaradır. Beyin ölçülə biləndir, şüurunsa fəzada neçəsə kub metr sahəyə, yaxud neçə santimetr radiusa malik olduğunu deyə bilmirik. Deməli, beyin maddi, şüursa qeyri-maddidir. Elə isə iki fərqli aləm olan şüur (ruh) və maddə (beyin) necə əməkdaşlıq edirlər? Beyin və şüur arasındakı bu bölgünü fəlsəfə tarixində ilk dəfə qələmə alan Yeni Dövr fəlsəfəsinin banisi Rene Dekart olub, "İlk fəlsəfə haqda meditasiyalar" (1641) adlı əsərində o, şüuru ruhi,

bədəni maddi olmaqla iki müstəqil substansiya hesab edərək məsələyə dualist izah verib. Lakin R.Dekart ruh və maddə kimi iki fərqli substansiyanın bir-birinə nə cür qarşılıqlı təsir göstərməsi haqda suala cavab verməyib ki, böyük müzakirələr doğuran fundamental sual da elə budur.

Şüurla əlaqədar **ikinci problemdə** isə bədəndəki fiziki proseslərin niyə subyektiv təcrübə və daxili hissiyyat doğurması haqda sual qoyulur. Gözə düşən vizual məlumatın beynin arxasındakı optik sinirə təsiri nəticəsində neyron hərəkətlənməsi olur və biz nəyisə görə bilirik, elm obyektiv nöqteyi-nəzərdən bədəndəki bu kimi prosesləri izah edə bilir, lakin burada subyektiv nöqteyi-nəzər də var: fiziki proses niyə və necə olur ki, şəxsi təəssürat yaradır? Başı, mədəsi, dizi ağrıyan insan bədəndə gedən fiziki prosesi nə üçün bu və ya digər şəkildə hiss edir? Birinci şəxsin nəzərindən baxdıqda bu təcrübə insanın daxili mənini əmələ gətirir. Elm insanın qırmızı qızılgül görməsiylə sarı qızılgül görməsi arasındakı fərqi beynin reaksiyaları kimi izah edə və qeydə ala bilir. İnsan rəngləri, fiqurları görür, toxunaraq hiss edir, qoxunu duyur, ağrı hiss edir, bütün bunların neyronların bir-birinə siqnallar ötürməsinə görə olması faktdır. Məlumdur ki, qısa dalğa kombinasiyaları beyin qişamıza təsir edərkən bu, öz növbəsində mərkəzi sinir sistemimizdə dəyişiklik yaradır, “səma mavidir” deyəndə səs tellərinin, ciyərlərdəki hava axınının işi də məlumdur, lakin bunları yaşayan insanın qeydə alınmayan fenomenoloji təcrübəsi haqda sual açıq qalır: Bədəndəki fiziki proseslər niyə və necə olur ki, subyektiv təcrübəni doğurur? Fiziki aləmin saysız-hesabsız hadisə və proseslərinə insan niyə avtomatik olaraq, fərdi daxili aləmində sırf özünə aid təəssüratla (bu təəssürata fəlsəfədə “qualia” deyilir) reaksiya verir? İnsanın ətrafında və bədənində baş verən fiziki prosesləri öz daxili kinosu kimi yaşamasının səbəbi nədir? Müasir filosof D.Çalmers bu problemi koqnitiv elmin standart metodlarıyla öyrənilə biləcək şüurun funksiyları, dinamikası və quruluşu haqda başqa suallardan fərqləndirmək üçün ona “Şüurun çətin problemi” (2) adı qoyub və problem müasir fəlsəfədə ümumi konsensusla elə bu adla da tanınır.

Yuxarıda şüurun iki problemini nəzərdən keçirdik. Onlara birmənalı cavab verərək həll etməyi çətinləşdirən nədir? İnsan dünyanı şüur vasitəsilə qavrayır və dərk edir, sonra isə bu qavrayış və dərketməni həyata keçirən şüur haqda düşüncələrə dalır ki, bu metadüşüncə - düşüncə haqda düşncə də şüur vasitəsilə həyata keçir. Şüuru dərk etmək üçün yeganə alətin elə şüurun özü olması bu sualların cavabını çətinləşdirən başlıca amildir. Empirik elmlərdə bu problemləri həll etməyə çalışan çoxlu tədqiqat aparılıb. Filosof Umberto Ekonun təbirincə desək, fəlsəfə o suallarla məşğul olur ki, elmin onlara cavabı yoxdur, elmin birmənalı cavabı olanda fəlsəfə o sualları tərk edir. Şüurun təbiətiylə bağlı bu iki problem hazırda fəlsəfəylə koqnitiv elmlərin kəsişməsində formalaşan neyrofəlsəfə adlı sahənin diqqət mərkəzindədir. Ümumilikdə şüur fəlsəfəsində problemlərə indiyədək bir-birindən son dərəcə fərqli çoxlu yanaşmalar olub. Həmin yanaşmalar arasında daha çox fəallıq göstərənlər bunlardır: Fizikalizm (beynim işləyir, ona görə də mövcudam, bizim fikri-ruhi hallarımız beynin fiziki vəziyyətlərinə uyğundur, subyektiv təcrübələrimiz var, lakin onlar beynimizdəki fiziki proseslərdən əlahiddə deyil, hisslər və beyin mahiyyətcə eyni bir şeydir), funksionalizm (fikri-ruhi hallarımız öz-özlüyündə deyil, onların funksiyalarına görə nəzərdən keçirilməlidir, diqqət etməli olduğumuz sual budur ki, onlar bu böyük sistemdə nə kimi rol oynayırlar), eliminativ materializm (ümumiyyətlə şüurun olması üfüqün mövcud olması kimi bir illüziyadır, şüur problemi elmi dövriyyədən çıxarılmalıdır, biz şüur problemini şişirtmişik, şüur sadəcə fotosintez kimi adi bir bioloji prosesdir), emergentizm (gerçəklik laylı, təbəqəlidir, hər bir təbəqə quruluşca özündən aşağıdakı təbəqələrdən daha mürəkkəb birləşmələrdir, ona görə də özündən əvvəlki təbəqənin xüsusiyyətləriylə izah edilə bilməz; mexaniki aqreqat, məsələn, çınqılları suya atıb qarışdırsaq, o, özündən daha aşağı səviyyəli xüsusiyyətlərə endirilərək (çınqıl və su) izah edilə bilər, şüur kimi ali keyfiyyətləri isə onu əmələ gətirən maddi alt laylar haqda biliyə endirərək izah etmək mümkün deyil, çünki bu ali keyfiyyətlər alt layların mexaniki cəmi deyil, altda müəyyən kompleksiya olanda ortaya çıxan tamamilə yeni ali keyfiyyətlərdir) və panpsixizm. Panpsixizmin arqumentləriylə tanış olmazdan əvvəl onun unikal tarixi inkişafının qısa təhlilini aparaq.

**Panpsixizmin tarixinə qısa ekskurs.** Panpsixizm (yunan dilində “pan” – hər şey, “psyche” - ruh) cansız aləmin də şüurlu olması

fikrinə əsaslansa da, birrəng fəlsəfi təlim deyil; dünyagörüşün tipindən asılı olaraq, fikir tarixində panpsixizmin mifik, dini, fəlsəfi, həmçinin fəlsəfi-naturalist, fəlsəfi-idealist kimi geniş palitrası var.

Müasir panpsixizmi ilk növbədə ona mənaca yaxın animizm, hilozoizm, panteizm, panenteizm kimi anlayışlardan fərqləndirmək gərəkdir. Əgər animizm şeylərin içində insanabənzər fövqəltəbii varlıqlar - ruhlar olduğuna inanırsa, panteizm hər şeyin Tanrı olmasına, panenteizm teoloji Tanrının təbiətdən böyük, təbiətin Tanrının içində olmasına və hər şeydə Tanrının təcəssüm etməsinə inanırsa, müasir panpsixizm şüur nəzəriyyəsi naturalistdir. O, cansız aləmin də şüura bənzər keyfiyyətindən danışarkən fiziki şeylərin bütöv şəkildə şüurlu olmasından yox, onlarda subyektiv təcrübəyə malik hissələrin olması fikrindən çıxış edir.

Fəlsəfə tarixində ilk panpsixizm nümunələri Sokrataqədərki filosofların "maqnitin də ruhu var" (Fales) kimi fikirləri sayıla bilər, lakin onlar üçün bu, şüur problemlərinin həlli deyil, naturfəlsəfə - təbiəti izah etmək məsələsi idi. Terminin müəllifi onu "pan" deyil, hansısa naməlum səbəbdən "pampsixizm" adlandıran XYI əsr İntibah dövrü filosofu Francesco Patrizidir. Onun dövründə bir neçə cür panpsixizm ayırd etmək olar; əksər panpsixizm tərəfdarları aristotelçilik əleyhinə çıxış edən neoplatonçular idi, bir çoxu panpsixizmi kosmoloji dünya ruhu kimi görürdü, bəziləri isə dünyada hər şeyin hiss etdiyinə, hər şeyin hisslərə malik olmasına (pansensualizm) inanırdı.

Panpsixizmi sırf şüur-bədən dualizminin həlli kimi ilk mənimsəyən XVII əsr filosofu G.Leybniz hesab oluna bilər, çünki o, birbaşa R.Dekarta cavab verir. R.Dekart düşünən substansiya (ruh) və yertutran substansiyadan (bədən) danışırsa, G.Leybnisin fikrincə, yertutan substansiya kimi bir şey yoxdur, hər şeyin əsasında qeyri-maddi monadlar durur.

XVIII əsr fransız maarifçiliyi və mexaniki materializm əsri idi, bu əsrdə panpsixist ideyalara yer yox idi. Panpsixist ideyalar bir də XIX əsrdə, Almaniyada çiçəkləndi (Herder, Şopenhauer, Göte, Fexner, Lotze, Hartmann və b.), lakin bu şüur nəzəriyyəsi olmaqdan çox, poetik, romantik panpsixizm idi. Əsrin sonlarında panpsixist fikir İngiltərə və ABŞ-a (U.Klifford, H.Spenser, Ç.Pirs və b) da yayıldı ki, bu panpsixizm şüur problemlərinin elmi metodla həlli iddiasıyla ortaya çıxmışdı. Onlar dövrün fizikasını fəzada sonsuz vibrasiyalar və kainatın canlılığı kimi şərh edirdilər. Onları düşündürən əsas məsələ maddi quruluşun hansı həlqəsində şüurun peyda olması məsələsi idi və bu suala belə cavab verirdilər ki, şüurun qəfil peyda olduğu elə bir həlqə yoxdur. Ç.Pirsin bir məqaləsində (1892) "...bütün protoplazmanın şüurun bütün funksiyalarını təcrübə etməsi", "şüurun birbaşa və ya dolayı yolla maddəylə bağlı olması, təbiətin bütün maddələrində şüur olması", "daxildə maddənin özünü şüur kimi aparması"na dair hissələr vardı. (3)

XX əsrin əvvəlləri A.Eynşteynin dövrü idi, fizika qanunlarının ənənəvi dərkində inqilabi dəyişikliklər gedirdi. Bu dövr həm də cəmiyyətdə və mədəniyyətdə Modernizm hərəkatının baş qaldırdığı dövr idi, ənənəvi problemlərə qeyri-ənənəvi yenilikçi yanaşmalar bütün mədəniyyəti bürümüşdü. Bu dövrün ən maraqlı filosoflarından biri H.Berqson "Maddə və yaddaş" (1896), "Yaradıcı Təkamül" (1907) kitablarında bir sıra yeni tezislər irəli sürdü, onlardan biri bu idi: maddə şüurun ən aşağı dərəcəsidir. H.Bergson bu fikri "Ardıcıllıq və eynizamandalıq" (1922) kitabında inkişaf etdirərək, yazır: "Bütün fiziki proseslər keçmişin yaddaşını daşıyır. Yaddaş şüur xüsusuiyyətidir. Deməli, hər şeyə şüur xasdır." (4,43) H.Berqson panpsixizmi onun fəlsəfəsinin əsas prinsipinə söykənirdi, bu prinsipə görə, reallığın dərkində birbaşa təcrübə və intuisiyanın rolu mücərrəd rasionalizm və elmdən daha vacibdir.

XX əsrdə analitik fəlsəfədə B.Rassel və A.Uaythedin baxışlarını panpsixizmdə yeni mərhələ saymaq olar. B.Rassel şüur müəmmasını araşdıran "Şüurun təhlili" (1921) əsərində yazır: "Dünyanın nə materialdan qurulması məsələsi haqda mənim fikrim belədir ki, bu, nə şüur, nə də maddədir, onların hər ikisindən daha primitiv bir şeydir. Dünya hər ikisinin nə isə ortaq əcdadı kimi bir şeydən qurulub." (5, 11). B.Rasselə görə, şüur və beyin arasında fərq onların ibarət olduğu xam maddədə deyil, onların qruplaşdırılması üsulundadır. Şüur və beyin arasındakı fərq keyfiyyət fərqi yox, "arrangement"-də, yəni düzülüşdə, onların hansı nisbətdə bir araya gəlməsindədir. "Maddənin təhlili" (1927) əsərində o, şüur məsələsinə neytral monizm mövqeyindən yanaşır: "Hiss edirəm ki, kəskin xətt yoxdur arada, sadəcə şüur və maddi aləm arasında dərəcə fərqi var; dəniz ilbizi insandan az şüurludur, amma tam şüursuz deyil. Niyə kəskin xətt çəkə bilmirik, çünki şüurun əsas tərəflərindən biri yaddaşdır,

yaddaş isə hətta cansız əşyalarda da var," "...hətta atomlara da məhdud dərəcədə azad iradə şamil etmək olar." (6). Rassel panpsixizmi deyilir. Rasselin mövqeyinə görə, fiziki hadisələri fikir vasitəsiylə təcrübə etməkdən başqa yolumuz olmadığı üçün deyə bilmərik ki, beynimizdən kənardakı fiziki aləm şüuri aləmdən fərqli bir şeydir; fiziklərin fiziki aləm haqda verdikləri məlumatlar gerçəkliyin struktur xüsusiyyətləri və münasibətləri haqda məlumatlardır ki, fiziklər onları məhz şüur vasitəsilə təcrübə ediblər. B.Rasselin təbiət elmlərinin fiziki nəsnələrin yalnız səbəbiyyət, qüvvələr və quruluş xüsusiyyətləri haqda məlumat verə biləcəyi, şeylərin daxili mahiyyəti, kateqorik daxili keyfiyyətləri haqda isə məlumat verə bilməyəcəyinə dair fikirləri bir qədər C.Lokkun (XVII əsr) birincili və ikincili keyfiyyətlər bölgüsünü yada salır. Panpsixizmə görə, şüur da, maddə də eyni dərəcədə dünyanın fundamental xüsusiyyətləridir. Neytral monizmə görə isə nə şüur, nə də maddə dünyanın fundamental xüsusiyyətləri deyil; onların hər ikisi hər ikisi nə isə daha primitive üçüncü növ şüylərdən "inşa" olunub. B.Rassel panpsixizmin klassik mövqeyi ilə neytral monizm arasındadır və onun mövqeyinə "Rassel panpsixizmi" deyilir. B.Rasselin riyaziyyatçı həmkarı A.Uaythedin dünyada ətalətli maddə olmaması, hər şeyin müəyyən dərəcədə azadlığa və yaradıcılığa malik olması, dünyanı bir-biriylə qarşılıqlı əlaqəli proseslər şəbəkəsi kimi görməsi "proses fəlsəfəsi" kimi tanınır ki, bu da panpsixizmin spesifikləşmiş "panekperientializm" qanadına xas baxışdır. Bu baxışa görə, insan təkamülü subatomik səviyyədən başlanıbsa, təkcə insan deyil, ayrı-ayrı hüceyrələr də, molekullar, atomlar da, onların proton, elektron kimi subatomik hissəcikləri də bir qədər subyektiv "batinlik", daxili hissiyyat kimi bir xüsusiyyət əxz edib. Bu, panpsixistlərin dediyi "şüur" deyil, xalis təcrübədir.

Həmin dövrdə görkəmli praqmatist C.Dui də daxil olmaqla panpsixizm bir sıra filosofların baxışlarına xas idi. Lakin bütün bu baxışlar XX əsrin 30-cu illərinədək davam etdi, şüuru sırf maddə hadisəsi kimi izah edən fizikalist baxışın populyarlaşması ilə əlaqədar panpsixizm müzakirələri səngidi və bir də 1970-ci illərdə yenidən aktuallaşdı. T.Nagelin "Yarasa olmaq nə deməkdir" (1974), "Ölümcül suallar" (1979) əsərləri bu dövrdə panpsixizminin iki ən bariz nümunəsidir.

Ən müasir dövrdə analitik fəlsəfi ənənəin davamçıları G.Strausonun "Şüur və onun təbiətdə yeri", "Şüur hər yerdədirmi", D.Çalmersin "Şüurlu zehin", "Şüur: Fundamental nəzəriyyə axtarışı", F.Qofun "Qalileyin səhvi" əsərləri və s. 1990-2000-ci illərdə panpsixizmi natturalist baxımdan inkişaf etdirərək yaşadan əsərlərdən bir neçəsidir. Bu kitablar, məsələn, D.Çalmersin "Şüurlu zehin" (8) kitabı təkcə panpsixizmin mövqeyini izah edən manifestlər deyil, ümumilikdə şüur mövzusunda dövrün son nəzəriyyələrini və yeniliklərini ehtiva edən fundamental akademik tədqiqatlardır. Sözügedən kitabda "şüur misteriyası kainatın elmi dərki axtarışlarımızda qarşımızda duran ən böyük maneə" (8,11) kimi göstərilir. Beləliklə, ən müasir dövrdə panpsixizmin şüur problemlərinin izahı üçün irəli sürdüyü arqumentlərlə tanış olaq.

**Müasir panpsixizmin arqumentləri.** Panpsixizm cansız kimi tanıdığımız aləmin də əslində şüurlu olmasından danışarkən bir tərəfdən onu nəzərdə tutur ki, şüur – gerçəklik haqda daxili subyektiv təcrübədir, bu mənada hər şeyin subyektiv təcrübəsi var, digər tərəfdənsə onu nəzərdə tutur ki, maddi varlığın əsasını təşkil edən fundamental fiziki zərrəciklərə mental xüsusiyyətlər xasdır, beyin neyronları kimi milyonlarla ayrı-ayrı zərrəciyin primitiv mental xüsusiyyətlərinin çoxluğu şüuru əmələ gətirir. Panpsixizmə görə, təfəkkür və varlıq, ruh və bədən arasında kəskin bölgünün əslində əsası yoxdur, çünki onların hər ikisinə müəyyən səviyyədə şüur xasdır. Əgər fizikalistlərin dediyi kimi, dünyanın sadəcə hərəkət edən cansız hissəciklərdən ibarət olduğunu fərz etsək, bəs hisslər, qavrayış, düşüncələr, təcrübə və sairin mənşəyi nədir?

Ümumiyyətlə, insanın "daxili kinosu" fizikalistlərin dediyi kimi gözardı ediləcək bir şey deyil. Şüur fəlsəfəsində məşhur olan iki fikir eksperimenti bu "daxili kino"nun varlığını son dərəcə aydın ifadə edir: "Merinin otağı" fikir eksperimentinə görə, Meri adlı bir alim ağ-qara bir otaqda yaşayır və heç vaxt oradan kənara çıxmayıb. Həmin otaqda o, özü heç vaxt rəngləri görməsə də, rənglərin beynimizə təsiri haqda fizikanın bütün mövcud faktlarını mənimsəyərək, elmi tədqiqatlar aparır. Onun tədqiqatları hazırdır və elmi baxımından tamamilə doğrudur. Bir gün o, otaqdan kənara çıxaraq, qırmızı, sarı, çəhrayı,

yaşıl, göy rəngləri görür. Bu rənglər onda müəyyən şəxsi təəssürat, qualialar əmələ gətirir. Merinin rəngləri şəxsən görməsi onun tədqiqatlarında nəyisə dəyişəcəkmi? “Zombi” fikir eksperimentinə görə isə eynilə bizim bədənimiz kimi bədənə malik olan, amma ağrımaq, rənglərdən təsirlənmək, düşünmək kimi qabiliyyətləri olmayan varlıqların yaşadığı dünya təsəvvür edək. Elə bir dünyanın olması mümkündür. Fizikalizmin təsvir etdiyi dünya daha çox həmin dünyadır, ya biz insanların yaşadığı dünya? Bu iki arqument fəlsəfədə fizikalizm əleyhinə irəli sürülmüş ən güclü arqumentlərdir.

T.Nagel fizikalizmin ziddiyyətlərini həll etmək üçün panpsixizmi dörd müqəddiməyə əsaslanan aşağıdakı arqumentlə müdafiə edir:

1 İnsanın əmələ gəldiyi maddə tərkibi etibarilə başqa maddələrdən fərqli deyil.

2 Mental hallar (ağrımaq və s.) insanların real xüsusiyyətləridir.

3 İnsanların bütün xüsusiyyətləri onları əmələ gətirən hissələrin xüsusiyyətlərindən irəli gəlir.

4 Mental hallar təkcə fiziki xüsusiyyətlərdən yarana bilməz.

Nəticə: Deməli, bütün maddələrin fikri xüsusiyyətləri var.

Nagel panpsixizminin əsaslandığı arqumentin dörd müqəddiməsindən birincisi, maddi kompozisiya haqda müqəddimə onun mövqeyini kartezian dualizmindən fərqləndirir. İkinci müqəddimə onu reduktiv şüur nəzəriyyəsindən ayırır. Üçüncü müqəddiməsində o, realistdir, dördüncü müqəddimə isə onu emergentizmdən fərqləndirir. Beləliklə, T.Nagel qeyri-fiziki halların mümkünlüyünü qəbul edən, lakin onu fiziki aləmdən tam qoparmaq istəməyən bir aralıq mövqedədir. O, qeyri-fiziki mental vəziyyətlərin əsasında duran, fiziki səbəblərlə izah oluna bilməyən qeyri-fiziki komponentlər təklif edir. Sonra bu fikri inkişaf etdirərək həm fiziki, həm də qeyri-fiziki xüsusiyyətlərin əmələ gəldiyi daha bazis tərkib hissələr haqda ideya irəli sürür. Yalnız bu bazis xüsusiyyətlərin mövcudluğu şərtiylə mental vəziyyətlər fiziki vəziyyətlərdən ayrıla, eyni zamanda maddədən təşkil oluna bilər. T.Nagel emergentist baxışdan fərqli olaraq, səbəbiyyət və qarşılıqlı asılılıq arasında fərq qoyur. “Mental və fiziki komponentlərnin aqreqatı ilə mental vəziyyətlərin özləri arasındakı boşluğu doldurmaq üçün səbəblər olmalıdır. Bu o deməkdir ki, sadəcə “hər dəfə x fiziki vəziyyəti olanda y mental vəziyyəti olur” demək kafi deyil, çünki elədə bu, sadəcə hadisələrin növbələşməsi olardı. Bunun əvəzində y mental vəziyyətini x mental vəziyyətindən “zəruri şəkildə doğuran daxili zorlayıcı bir qüvvə olmalıdır.” (8, 187). Əks təqdirdə, subyektiv şüuru izah etmək mümkün olmaz.

T.Nagelin “Yarasa olmaq nə deməkdir” (1974) essesi belə bir mövqedən çıxış edir: Şüur təcrübəsinə aid elə faktlar var ki, onlar subyektivdir və yalnız suyektiv perspektivdən anlaşıla bilər; yarasalar haqda bütün faktları bilsək də, yarasa olmağın necə bir şey olduğunu özümüz üçün təsəvvür etsək də, yarasa üçün yarasa olmağın əslində nə demək olduğunu bilə bilmərik.

T.Nagelin davamçısı, müasir şüur fəlsəfəsinin nümayəndəsi D.Çalmers isə panpsixizmi şüur problemlərinin həlli kimi əsaslandırmaqdan ötrü kitablarında və çıxışlarında belə bir arqument irəli sürür: Fiziklər fəza, zaman, çəki kimi anlayışları kainatın fundamental xüsusiyyətləri kimi götürürlər. Bunlar elə fundametal xüsusiyyətlərdir ki, özlərindən daha primitiv şeylərlə izah oluna bilmir. Lakin bəzən fundamentalların siyahısın genişlətmək gərəkdir. XIX əsrdə elektromaqnetizmi kəşf edən Maksvell də bənzər vəziyyətlə üzləşmişdi, mövcud fundamentlərlə onun nəzəriyyəsini izah etmək olmurdu, ona görə də o, mövcud fundamentalların siyahısına elektrik yüklənməni də artırdı. Şüur problemlərini həll etməyin də yolu elmdə kainatın fundamentalları kimi qəbul olunan siyahıya, yəni “təbiətin əsasında duran kərpiclərə birini də - mental xüsusiyyəti də artırmaqdan” keçir. (9, 25)

Müasir panpsixizmin analitik fəlsəfə ənənəsindən olan daha bir nümayəndəsi filosof G.Strausonun panpsixizmi müdafiə edən arqumentlərinə baxaq. Fizikalizm və materializm sözlərini sinonim kimi işlədən G.Strauson yazır: "Fizikalizm kainatdakı hər bir real, konkret fenomenin fiziki olmasına inanan təlimdir. Şüur, fenomenologiya, hiss, təcrübə, adına nə deyirsizsə deyin, fundamental təbii faktdır. Təcrübədən daha çox əmin olduğumuz bir şey yoxdur. Panpsixizm hər bir konkret real şeyin qeyri-mental keyfiyyətləri ehtiva etsə də, təcrübə edən varlıq olması haqda baxışdır, bu baxışın müasir fəlsəfədə cəmi bir neçə dostu var. Çoxları bunu mif hesab edir. Lakin şüuru ciddi qəbul edən hər bir əsl materialist/fizikalist panpsixizmi qəbul etməlidir. Fizikalist olmaq panpsixizmi istisna etmir, əksinə.

Çünki hər bir fiziki nəsnənin mövcudluğu təcrübə edən varlığı ehtiva edir...” (10) G.Strausonun fikrincə, panpsixizmə qarşı müqavimət göstərmək ona görə səhv etmək deməkdir ki, müqavimət göstərənlər fiziki maddənin və mövcudluğu təcrübə etməyin barışmaz dərəcədə fərqli şeylər olduğuna inanırlar. “Fiziki aləm haqda hər şeyi bildiyimizi güman etməyə elə də yaxşı səbəbimiz yoxdur ki, bu səbəb fiziki fenomenlərin təcrübə edən fenomenlər olduğu haqda fikirdə problem görməyə əsas versin.” (10,4)

Beləlikə, aydın etdik ki, panpsixizm hər şeyin (taxtanın, dəmirin, ağacın, daşın) sözün hərfi mənasında insan kimi şüurlu olması deyil, kainatı təşkil edən fundamental tərkib elementlərinin son dərəcə sadə daxili mental təcrübəyə malik olması (ii) və insan beyninə xas mürəkkəb təcrübənin əslində beynin ən sadə tərkib hissələrinin bu keyfiyyətlərinin cəmi olduğu haqda nəzəriyyədir.

**Panpsixizmin opponentlərinin arqumentləri.** Müasir naturalist panpsixizmin həm tərəfdarları, həm də əleyhdarları eyni bir fəlsəfi ənənəni - məntiq və elmi metodu fəlsəfə üçün iki əsas alət hesab edən analitik fəlsəfəni təmsil edirlər. Bu ənənəyə görə, fəlsəfi fikir yürüdürüksə, hər bir sözə ehtiyatla yanaşılmalıdır. Panpsixizm haqda danışılırsa, əvvəlcə haqqında danışılan anlayışla hər iki tərəfin eyni bir şeyi ifadə etdiyinə əmin olmaq lazımdır.

Lakin panpsixizm ideyasına müqavimət göstərənlərin arqumentlərini oxuyanda görürük ki, opponentlər panpsixizm adı altında sanki hilozoizmi nəzərdə tutaraq fikir yürüdürlər. Misal üçün, müasir tədqiqatçı C.McGinn də daxil olmaqla, panpsixizmə qarşı əsas arqumentlərdən biri budur: “İndi biz daşın fikirləri və hissləri olduğuna, amma onların bunu ifadə edə bilmədiyinə inanmalıyıq?”

Birincisi, panpsixizm daşın şüurundan danışarkən onun ən aşağı dərəcəli subyektiv təcrübəsi olan hissələrə malik olduğunu nəzərdə tutur. İkincisi, subyektiv təcrübəsi olan cansızın bunu ifadə etməməsi, buna müqabil davranış göstərməməsi haqda arqument tipik məntiqi-biheviorist arqumentdir. Vyana Dərnəyindən gələn bu baxışa görə, şüur öz-özlüyündə yox, şüurlu varlığın davranışına əsasən nəzərdən keçirilməlidir. Məsələn, əgər yağış yağırsa, bir insanın davranışında bu yağışa görə heç bir fərq yoxdursa, onun yağış haqda düşündünüyünü deməyimiz üçün heç bir əsasımız yoxdur. Bu baxışa əsasən, psixologiya daxili aləmi, daxili şüuru yox, davranışı öyrənməlidir, zira davranışdan başqa şüurun təzahür forması yoxdur. Davranışlar isə beyin daxilində yox, ətraf aləmdə - xarici aləmdə baş verir. Bu, mübahisəli fikirdir və H.Putnam kimi bir sıra filosoflar tərəfindən inkar olunub. Məntiqi-biheviorizmə qarşı ən tutarlı arqument ağrı hesab oluna bilər. Ağrı heç bir davranış doğurmasa belə, şüur daxilində müəyyən iztirab doğurur və bu iztirab obyektivdir, hamıya xasdır.

Elm fəlsəfəsinin, pozitivizmin görkəmli nümayəndəsi K.Popper panpsixizmin tənqidinə həsr olunmuş məqaləsinə (1977) belə bir xülasə vermək olar: heç də şüurun problemlərini həll etmir, çünki yenə də cansızdan canlıya keçiddə böyük bir boşluq qalır: bəs o şüur maddəyə haradan gəlib? İnsanların şüursuz su molekullarını bədənlərinin şüurlu sistemlərinə daxil edə bilməsi avtomatik olaraq deməyə əsas vermir ki, suda nə isə “proto-şüuri” potensial var. Labarator müşahidələrə əsasən atomların yaddaşı yoxdur. Panpsizm “fantastik” və “əsassız”dır. (11)

Panpsixizmin əleyhdarlarının daha bir arqumentinə görə, panpsixistlər mücərrəd danışırlar, məsələn, onlar sayca neçə kiçik şüurcuğun birləşərək böyük şüuru əmələ gətirdiyini deyə bilməzlər. Bundan başqa, kiçik mental halların necə birləşərək insan şüurunu əmələ gətirdiyinə dair aydın izahları yoxdur. Saatın hissələrinin necə birləşərək saat əmələ gətirdiyi aydındır, panpsixistlərin izahı isə aydın deyil.

Göründüyü kimi, panpsixizm sınaqlarla yoxlana bilən olmadığı üçün tənqid edilir. Bilik əsaslandırılmış doğru inamdır. Panpsixizmin də bilik hesab olunması üçün onun doğru inam olması əsaslandırılmalıdır. Onun məntiqlə əsaslandırılması mümkündür, lakin elmi təcrübə ilə yoxlanması mümkün deyil. Çünki varlığın elə bir səviyyəsindən söhbət gedir ki, orada öz-özünü dərk etməyə çalışan şüur maneəyə rast gəlir. Bu, elmi təcrübənin ümumiyyətlə müdaxilə edə bilmədiyi bir sfera – insan subyektiv fenomenoloji təcrübəsidir.

**Nəticə**

Bələliklə, məqalədə şüurun təbiəti haqda iki sualı nəzərdə keçirdik. Birinci sual bundan ibarət idi: Necə olur ki, fiziki kütlə olan, məkanda yer tutan maddi beyin və qeyri-maddi şüur bir-birinə qarşılıqlı təsir göstərir? İkinci sualı isə qısaca belə

formulə etmək olar: Niyə və necə olur ki, insan fiziki prosesləri qeydə alınmayan subyektiv, şəxsi fenomenoloji təcrübəsi kimi yaşayır?

Bu suallara xas ruh-bədən dualizmini həll etmək üçün panpsixizm mövqeyindən çıxış edən filosoflar belə bir arqumentlə çıxış edirlər ki, maddə də şüura malikdir, kainatdakı hər bir şeyin və şeylərin hər bir hissəsinin ən aşağı səviyyədə şüura bənzər xüsusiyyəti var. Fiziki zərrəciklər də daxil olmaqla ətrafdakı hər şey şüurun parçalarıdır; fotonların da, protonlar da subyektiv təcrübəsi var, beyin neyronları da ayrı-ayrı şüurcuqlar olduğu üçün onların müəyyən strukturda birləşməsi insan şüuru kimi ali fenomeni əmələ gətirir. Şüurun bu cür universallığı dinlərin dediyi kimi nə isə fövqəltəbii bir hal deyil, kainatın təbii inkişaf xüsusiyyətidir.

Panpsixizmin opponentlərinin arqumentlərini oxuyarkən gördük ki, onların çoxu panpsixizmi ibtidai əcdadı hilozoizmlə səhv salır. Müasir panpsixizm daşların da bizim kimi hiss etdiyini və fikirləşdiyini iddia etməkdən çox uzaqdır. Məqalənin əvvəlində şüura belə bir tərif vermişdik: şüur – gerçəklik haqda subyektiv təcrübədir. Şüura belə yanaşdıqda naturalist panpsixizmin şüuru az və ya çox dərəcədə hər şeyə xas olan universal xüsusiyyət kimi görməsini anlamağa doğru böyük bir addım atmış olarıq. Düzgün anlaşılan panpsixizm şüur tədqiqatlarında onun potensialından istifadə etmək üçün vacib məqamdır.

Panpsixizm mürəkkəb şüur sisteminin dərki üçün qiymətli baxış bucağı təklif edir. Əlbəttə, bu baxış inkişaf etdirilə bilər.

**Qeydlər**

i - Son illər ingilis dilindən tərcümə olunan kitablarda (məsələn, Tomas Nagelin "Bütün bunlar nə deməkdir" kitabı) bu problemin (mind-body problem) adı Azərbaycan dilində zehin-bədən kimi göstərilir. Fikrimizcə, zehin sözünü bu problemin adında "mind" sözünün tərcüməsi kimi vermək qüsurludur, çünki Azərbaycan dilinin izahlı lüğətinə görə, zehin insanın hafizəsini, yaddaşını bildirən sözdür. Problemin adının ruh-bədən kimi göstərilməsi də eyni dərəcədə qüsurludur. Azərbaycan dilində ruh sözünün iki mənası var. Birinci mənaya görə, ruh əhval-ruhiyyədir, ikinci mənaya görə, insanın bədəni öləndən sonra yaşamağa davam edən hissəsidir; İslam dini ruh haqda "Tanrı qatında sirr" ifadəsini işlədir. "Şüur-bədən problemi" adı da qüsursuz deyil, lakin verilmiş kontekstdə Azərbaycan dili üçün ən münasib olan variant kimi bunu seçirik.

ii - Panpsixst baxışın etik tətbiqi də eyni dərəcədə əhəmiyyətli məsələdir; o, cansız aləm qarşısında məsuliyyət hissinin aktual qalmasına xidmət edə bilər, lakin bu, etik nəzəriyyə kimi başqa tədqiqatların mövzusudur.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Descartes.R., Meditations on First Philosophy. Oxford University Press, 2008 //URL: https://personal.lse.ac.uk/ROBERT49/teaching/ph103/pdf/Descartes_1641Meditations.pdf

2.Chalmers.D., Journal of Consciousness Studies, 2, No.3, 1995 // URL: https://personal.lse.ac.uk/ROBERT49/teaching/ph103/pdf/chalmers1995.pdf

3.Peirce.Ch., "Man's Glassy Essence", The Monist, Vol. 3, No. 1 (October, 1892) // URL: https://www.jstor.org/stable/27897031?seq=1

4.Bergson H., Durability and Simultaneity, NY: The Bobbs-Merrill Publishing, 1922 //URL:https://archive.org/stream/DurationAndSimultaneityHenriBergson/Duration%20and%20Simultaneity_Henri%20Bergson_djvu.txt

5.Russell B., Analysis of Mind. London: George Allen Unwin Ltd. 2005 //URL: https://archive.org/details/analysisofmind032971mbp/page/n3/mode/2up

6.B.Russell., The Analysis of Matter. London: Kegan Paul Trench Trubner Co Ltd. 1927 https://archive.org/details/dli.ministry.09150/mode/2up

7.Chalmers.D., The Conscious Mind, Oxford University Press, 1996 //URL: https://personal.lse.ac.uk/ROBERT49/teaching/ph103/pdf/Chalmers_The_Conscious_Mind.pdf

8.Nagel. T., Mortal Questions. Cambridge University Press, 2012. // URL: https://aaron-zimmerman.com/wp-content/uploads/2021/01/Nagel-Panpsychism.pdf

9.Chalmers.D., Conscious Search Fundamental Theory. Oxford University Press, 1997. //URL: https://www.amazon.co.uk/Conscious-Search-Fundamental-Theory-Philosophy/dp/0195117891

10.Strawson G., Realistic Monism: Why Physicalism Entails Panpsychism. Imprint Academic.

2006, pp. 3-31.// URL:https://www.sjsu.edu/people/anand.vaidya/courses/c2/s0/Realistic-Monism---Why-Physicalism-Entails-Panpsychism-Galen-Strawson.pdf

11. Popper K., Some Remarks on Panpsychism and Epiphenomenalism., Dialectica, Vol 31. No 1/2/., 1977, pp 177-186. // URL: Vol. 31, No. 1/2, 1977 of Dialectica on JSTOR

**Narmin Sarvar g. FARAJULLAYEVA**
ANAS, Institute of Philosophy and Sociology
Email: info@nerminkamal.com

**PANPSYCHISM AS A SOLUTION TO THE HARD PROBLEM OF CONSCIOUSNESS AND MIND-BODY DUALISM**

**Abstract:** The paper discusses two basic problems in philosophy of mind from a panpsychic perspective: the hard problem of consciousness and the famous mind-body dualism. The modern panpsychism is defined as a naturalistic approach to the problems of consciousness that rejects Cartesian dualism, theology and physicalism. The author gives introduction to the mentioned problems of mind, examines the historical progression of panpsychism, considers the arguments put forth by proponents and opponents of panpsychism in the tradition of analytic philosophy, and finally shows the possibilities and limitations of the idea as a solution to the fundamental questions of cognitive science.

**Key words:** *Philosophy of consciousness, mind-body problem, subjective experience, hard problem of consciousness, panpsychism, analytical philosophy, history of philosophy.*

**Нармин Сарвар к. ФАРАДЖУЛЛАЕВА**
Национальная Академия Наук Азербайджана, Институт философии и социологии
Email: info@nerminkamal.com

**ВОПРОСЫ РЕШЕНИЯ ПРОБЛЕМЫ СОЗНАНИЯ НА ОСНОВЕ ПАНПСИХИЗМА**

**Резюме**

В статье обсуждаются две основные проблемы философии сознания с панпсихической точки зрения: трудная проблема сознания, которая заключается в вопросе о субъективном осознании/опыте, и дуализм душа и тела. Современный панпсихизм определяется как натуралистический подход к проблемам сознания, который отвергает картезианский дуализм, теологию и физикализм. Автор сначала представляет упомянутые проблемы, затем исследует историческое развитие панпсихизма, рассматривает аргументы, выдвинутые сторонниками и противниками панпсихизма в традиции аналитической философии, и, наконец, показывает возможности и ограничения идеи панпсихизма в решении двух проблемов сознания.

**Ключевые слова:** *философия сознания, дуализм души и тела, субъективный опыт, панпсихизм, аналитическая философия, история философии.*

**Daxil olub:** 02.10.2023